**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**MƏMMƏDLİ SƏBİNƏ RAFİQ qızı**

# FÖVQƏLADƏ TƏHQİQAT KOMİSSİYASININ SƏNƏDLƏRİ 1918-Cİ İLDƏ ŞAMAXI QƏZASINDA HƏYATA KEÇİRİLƏN SOYQIRIMI ÖYRƏNMƏK ÜÇÜN MƏNBƏ KİMİ

**İxtisas: 5509.01– Tarixşünaslıq, mənbəşünaslıq**
**və tarixi tədqiqat üsulları**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **A.C.İSGƏNDƏROV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **N.Z.MƏMMƏDOV**

Tarix üzrə fəlsəfə doktoru **V.Ş.ABIŞOV**

**Aparıcı müəssisə -** Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "__" _______2018-ci il tarixli iclasında, saat __00-da keçiriləcəkdir.

**Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.**

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____" "__________" 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** 2018-ci il xalqımızın tarixinə "Azərbaycan Xalq Cümhuriyyəti ili" kimi daxil oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2017-ci il may ayının 16-da "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" imzaladığı xüsusi sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə siyasi, iqtisadi və mədəni sahələrdə əldə edilmiş uğurları, bunun nəticəsində beynəlxalq hüququn subyekti kimi tanınmasını qeyd etmiş, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyasının unudulmadığını, müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu xüsusi vurğulamışdır .[1]

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın əzmini, qeyrətini, Vətəninə, torpağına sevgisini və bağlılığını sınağa çəkən milli-istiqlal hərəkatının və çox çətin bir mübarizənin nəticəsi idi.

Cümhuriyyətə gedən yolda Azərbaycan xalqının düşmənləri - ilk əvvəl imperialist, sonra isə bolşevik Rusiyası, həmçinin əsrlərlə Azərbaycan torpaqlarını ələ keçirmək planları işləyib hazırlayan ermənilər türk-müsəlman əhalisinə qarşı müxtəlif fitnə-fəsadlar, qətllər, qətliamlar, soyqırımlar törədərək müstəqilliyimizə mane olmağa çalışmışlar. Və bu yolda xalqımızın başına gətirilən ən dəhşətli faciələrdən biri 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən türk-müsəlman əhalisinə qarşı xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il yanvar ayının 18-də "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlər ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılmalıdır.[2] Prezident İlham Əliyev bu hadisələri bəşəri cinayətlər adlandırır, yəni həqiqətən də bunlar təkcə azərbaycanlılara, türk-

[1] Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı (16 may 2017-ci il). "Azərbaycan" qəz., 17 may 2017-ci il.

[2] 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Azərbaycan Respublikasının Prezidentinin sərəncamı (18 yanvar 2018-ci il). "Azərbaycan" qəz., 19 yanvar 2018-ci il.

müsəlmanlara qarşı deyil, bəşəriyyətə, insanlığa qarşı çevrilmiş cinayətlərdir.

Müstəqilliyimizdən keçən 27 il ərzində aparılmış elmi araşdırmalar nəticəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar edilmişdir. Bütün bunlar 1918-ci ilin yazında və daha sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri soyqırımların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut edir.

Beləliklə, 1918-ci ildə Azərbaycanda və onun bir çox bölgələrində erməni-daşnak və bolşevik dəstələri tərəfindən həyata keçirilmiş qətliamların və soyqırımların elmi cəhətdən bütün genişliyi ilə obyektiv şəkildə araşdırılması və ictimaiyyətə çatdırılması tədqiqatçılarin bəşəriyyət və insanlıq qarşısında, habelə ilk əvvəl xalqımız qarşısında borcudur və müstəsna aktuallıq kəsb edir.

1918-ci ilin yazında daşnak-bolşevik birləşmələrinin həyata keçirdiyi soyqırımdan ən çox zərər çəkmiş bölgələrdən biri də Şamaxı şəhəri və Şamaxı qəzasının müsəlmanlar yaşayan kəndləri olmuşdur.

Təəssüflər olsun ki, 1918-1920-ci illərdə bilavasitə Sovet Rusiyasının təhriki və dəstəyi ilə daşnak-bolşevik birləşmələrinin həyata keçirdiyi soyqırım uzun illər Sovet tarixşünaslığında ciddi şəkildə təhrif olunmuş, rəsmi dövlət ideologiyasının maraq və tələblərinə uyğun tərzdə saxtalaşdırılmışdır.

Sovet tarixşünaslığında, bir qayda olaraq, Şamaxı şəhəri və Şamaxı qəzasında törədilən qırğın və talanlar, guya Bakıda 1918-ci ilin martında baş vermiş müsavat əksinqilabı üzərində bolşeviklərin əldə etdikləri "tarixi qələbənin" məntiqi davamı, nəticəsi kimi təqdim edilirdi: "Mart döyüşlərində əksinqilabi qüvvələr üzərində əldə edilən qələbə Sovet hakimiyyətini təkcə Bakıda deyil, Azərbaycanın bütün qəzalarında möhkəmləndirdi, eyni zamanda inqilabi qüvvələrin hücuma keçməsinə səbəb oldu. Aprel-may ayları ərzində Lənkəran, Şamaxı, Cavad və Quba qəzalarında Sovet hakimiyyəti bərqərar edildi".[1]

Halbuki, 1918-ci ilin mart-aprel aylarında ilk günlərindən etibarən Bakıda törədilmiş cinayətlər eynilə Şamaxıda, Quba-Xaçmazda,

[1] Азизбекова П., Казиев М., Степан Шаумян. Баку: Азербайджан, 1978, с.102.

Lənkəranda, Hacıqabul və Salyanda törədildi. Daşnak talanlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu[1].

Təəssüflər olsun ki, bu günə qədər 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərindən bəhs edərkən, nədənsə onların Şamaxıda törətdikləri vəhşiliklərin ifşası kölgədə qalmışdır.[2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitqlərindən birində: "Bizim övladlarımız vətən tarixini yaxşı bilməlidirlər. Belə ki, sovet dönəmində uzun illər boyu biz yalnız tarixin bir hissəsini bilir, digərini isə bilmirdik. Bəzi hallarda Azərbaycan xalqına qarşı cinayət törətmiş olan insanlar bizə qəhrəman kimi təqdim olunurdu... Biz 1918-ci ildə nələrin baş verdiyindən xəbərsiz idik, 26-lar qəhrəmanlar kimi göstərilirdi, əslində isə onlar azərbaycanlılara qarşı amansız qəddarlıqlar törətmişlər... Azərbaycanlıların qanlarını axıtmış olan Şaumyanlar və həmin qəbildən olan qəddar erməni cinayətkarları Azərbaycanda qəhrəmanlar kimi təqdim edilirdi" - deyə, qeyd etmişdir.[3]

XX əsrin əvvəllərində Azərbaycanın müstəqillik ideyalarına, milli demokratik qüvvələrə zərbə vurmaq məqsədilə Stepan Şaumyan başda olmaqla daşnak-bolşevik birləşmələrinin 1918-ci ilin yazında törətdikləri soyqırımın elmi-obyektiv müstəvidə, ilkin və etibarlı mənbələr əsasında tədqiq olunmasının son dərəcə mühüm ictimai-siyasi əhəmiyyət kəsb etdiyini aydın şəkildə göstərir.

Məhz bu səbəbdən də dissertasiya mövzusunun tədqiqi böyük aktuallıq kəsb edir. 1918-ci ilin yazında daşnak-bolşevik birləşmələrinin Şamaxı şəhərində və Şamaxı qəzasında azərbaycanlı - müsəlmanlara qarşı təşkil etdikləri soyqırım cinayətlərinin ən etibarlı, ilkin mənbə kimi əvəzsiz elmi əhəmiyyət kəsb edən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən təşkil edilən Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilməsi, təkcə elmi-obyektiv öyrənilməsi baxımından deyil, həm də vaxtilə bolşevik pərdəsi altında gizlənərək yüzlərlə, minlərlə soydaşımızı dini və milli mənsubiyyətinə görə soyqırıma məruz qoyan Bakı Xalq Komissarlar Sovetinin antiazərbaycan siyasətini nümayiş etdirmək

---

[1] XX əsr Azərbaycan tarixi (T.Vəliyevin ümumi redaktəsi ilə). İki clddə, II c., Bakı: Təhsil, 2009, s.164.

[2] Геноцид Азербайджанского народа 1918 года. Организаторы и палачи. Под ред. Я.М.Махмудова. Баку: Турхан, 2013, с.226.

[3] Azərbaycan. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, s.3.

baxımından böyük ictimai-siyasi, sosial, elmi və praktiki əhəmiyyət kəsb edir.

1918-1920-ci illərdə Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətlərə ilk dəfə hüquqi və siyasi qiyməti 1998-ci il 26 mart tarixində imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında"kı fərmanla Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vermişdir. Bu hüquqi sənəd hazırlanarkən 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsas götürülmüşdür.

Fərmanda Heydər Əliyev 1918-ci ilin yazında bolşevik-daşnak qüvvələri tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımın araşdırılmasının artıq Azərbaycan Xalq Cümhuriyyəti höküməti dövründə son dərəcə aktual məsələ olduğunu və bu məqsədlə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının öz işinə ilk növbədə soyqırımdan ən çox zərər çəkmiş Şamaxı şəhəri və Şamaxı qəzasından başladığını xüsusi olaraq qeyd etmişdi: "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı".[1]

Ümummilli lider Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bolşevik-daşnak birləşmələri tərəfindən Azərbaycanda 1918-ci ilin yazında həyata keçirilən soyqırımı araşdırmaq üçün gördüyü işləri yüksək dəyərləndirmişdi: "Əslində bu azərbaycanlılara qarşı yürüdülən soyqırım və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi".[2]

Həqiqətən də, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və 1920-ci ilin aprel işğalından sonra Azərbaycanda sovet hakimiyyəti dövründə soyqırım hadisəsinin olmayıbmış kimi unutdurulması, ən yaxşı halda isə təhrif edilməsi üçün dövlət səviyyəsində tədbirlər görüldü. Nəticədə, 1918-ci ildə Bakıda və Azərbaycan qəzalarında, o cümlədən Şamaxı şəhəri və Şamaxı

---

[1] Azərbaycanlıların soyqırımı haqqında. Azərbaycan Respublikası Prezidentinin fərmanı (26 mart 1998-ci il) - Azərbaycan Respublikası Prezident kitabxanasının "Azərbaycanlıların soyqırımı və deportasiyası" adlı elektron resursları. News.lent.az/news/62172, 181s.

[2]Yenə orada.

qəzasında törədilmiş qırğınlara bilavasitə rəhbərlik edən, bu qanlı cinayətləri həyata keçirən Tatevos Əmiryan, Stepan Lalayev, Hamazasp Srvantsyan, Stepan Şaumyan "bütün sovet dövründə xalqımızın, o cümlədən gənclərimizin vətənpərvərlik tərbiyəsində "canlı örnək" rəmzinə çevrilmişdi".[1]

Qeyd edək ki, çoxsaylı çətinliklərə baxmayaraq, təkcə Şamaxı şəhəri və Şamaxı qəzasının kəndlərində soyqırımın araşdırılmasına dair Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən 7 cild, 925 vərəqdən, o cümlədən 46-sı Şamaxıya, 17-si isə Şamaxının kəndlərinə aid olan 63 foto sənəddən ibarət material toplanmışdır.

Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı üzrə təhqiqat qrupuna Andrey Novatskiy, Nikolay Mixaylov və bir qədər sonra isə İsmayıl bəy Şahmalıyev kimi təcrübəli müstəntiqlər daxil oldular. Şamaxıda və Şamaxı qəzasında faciələrin miqyası son dərəcə böyük olduğundan onlar təkcə Şamaxıda 300 nəfərdən artıq zərərçəkəndən şahid ifadəsi almışdılar. Fövqəladə Təhqiqat Komissiyasının Şamaxı şəhəri və Şamaxı qəzasında apardıqları təhqiqatlar nəticəsində bəlli olmuşdur ki, Şamaxı şəhərində soyqırım zamanı 8 mindən artıq azərbaycanlı qətlə yetirilmiş, şəhərdə azərbaycanlılara məxsus bir milyard manatdan yuxarı dəyəri olan əmlak qarət edilmiş, onlara məxsus evlər yandırılaraq məhv edilmişdir. Bundan başqa Şamaxıda 13 məscid, o cümlədən qiymətli tarixi abidə olan "Cümə məscidi" də yandırılmışdır.

Fövqəladə Təhqiqat Komissiyası üzvlərinin Şamaxı qəzasında apardıqları təhqiqatlar nəticəsində, bütövlükdə qəzanın 110 kəndinin bolşevik-daşnak təcavüzünə, o cümlədən 105 kəndin bilavasitə yanğın və talanlara məruz qaldığı bəlli olur. Bundan başqa, Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyəti nəticəsində Şamaxı qəzasının 53 kəndində ermənilər tərəfindən 8027 nəfər azərbaycanlının qətlə yetirildiyi məlum olmuşdur.[2]

Qətlə yetirilənlərin 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaqlar olmuşlar. Şamaxı qəzasının kəndlərinə isə soyqırım zamanı 339,5 milyon manat dəyərində maddi ziyanın dəydiyi üzə çıxarılmışdır.[3]

[1] İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006, s.7.
[2] ARDA, f.1061, siy.4, iş 41, v.10.
[3] ARDA, f. 1061, siy.2, iş 85, v.14.

**Dissertasiya işinin xronoloji çərçivəsi.** 1918-ci ilin martından 1918-ci ilin iyul aylarınadək olan dövrü əhatə edir. Azərbaycan xalqı içərisində heç bir sosial, siyasi dayağa malik olmayan Bakı Sovetinin rəhbərliyi milli istiqlal mübarizəsini beşikdəcə boğaraq siyasi hakimiyyəti ələ almağın yeganə yolunu 1918-ci ilin martında Bakıda soyqırım törətməkdə gördü. Şamaxıda da dinc azərbaycanlılara qarşı soyqırım və talanlar demək olar ki, Bakı qırğınları ilə eyni vaxtda - 1918-ci ilin martın sonlarından başlayaraq 1918-ci ilin iyul ayı da daxil olmaqla yayınadək davam etmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Bakıdan sonra bolşevik-daşnak qüvvələrinin təcavüzünə məruz qalan ikinci şəhər Şamaxı və onun kəndləri olmuşdur. Şamaxıdakı soyqırım ilk dəfə öz əksini Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazılan əsərlərdə tapmışdır. Bəhs edilən dövrdə yazılan kitablarda bu hadisələr "qətliam" və "qırğın" kimi qiymətləndirilir. Bu baxımdan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən tərtib olunan və bir növ özünü təqdim xarakteri daşıyan "Qafqazın Azərbaycan Respublikası" kitabı böyük maraq doğurur. Həmin kitabda Şamaxı hadisələri belə təsvir olunur: "Şamaxı rayonunda ermənilərin müsəlman əhaliyə hücumu basqınçılıqdan da pis oldu. Müsəlmanların qırılması, ailələrin bütünlüklə qətli, əhalinin güllələnməsi, qədim Azərbaycan şəhəri Şamaxının yüzlərlə kəndlərinin dağıdılması və yandırılması aydın göstərdi ki, bütün bunlar ermənilərin şəxsi fəaliyyətidir".[1]

1918-ci ilin yazında Şamaxıda baş vermiş qanlı hadisələr Məhəmməd Əmin Rəsulzadənin əsərlərində də öz əksini tapmışdır.[2]

Bakıdan sonra Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Şamaxıda baş verən qətllərin Stepan Şaumyanın göstərişi ilə həyata keçirilməsi barədə Məhəmməd Əmin Rəsulzadə yazır: "Şamaxının düçar olduğu təcavüzə Lənkəran, Səlyan, Quba, Nəvahi və Kürdəmir kimi qəza, şəhər və qəsəbələr də dəxi məruz qaldı".[3]

Məhəmməd Əmin Rəsulzadənin Azərbaycanda 1918-ci ilin yazında baş vermiş türk-müsəlman soyqırımının ildönümünə həsr etdiyi "Unudulmaz

---

[1] Qoca H. Fransızlar yurdum haqqında. Bakı: Yazıçı, 1990, s.128.
[2] ARDA, f. 106, siy.2, iş 791, v.106-107; Yenə orada, f.700, siy.1, iş 87, v. 44; Yenə orada, f.700, siy.1, iş 87, v. 45; Yenə orada, f.700, siy.1, iş 87, v. 47; Yenə orada, f.700, siy.1, iş 110, v. 47; Yenə orada, f.700, siy.1, iş 110, v. 159-160.
[3] Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, s. 30-31.

faciə" məqaləsi də xüsusi əhəmiyyət kəsb edir. Müəllif baş verən soyqırımı tarixin ən qanlı hadisələri ilə müqayisə edir.[1]

Onun "Qafqasiya türkləri" və "Çağdaş Azərbaycan tarixi" əsərlərində Azərbaycanda həmin hadisələr ərəfəsində yaranmış ictimai-siyasi vəziyyət, qüvvələr nisbəti, bolşeviklərin hakimiyyət taktikası və s.məsələlərin təhlili soyqırımın səbəblərinin düzgün dərk edilməsinə kömək edir.[2]

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzeti də Şamaxıda baş verən soyqırımı geniş əks etdirmişdir: "Şamaxıdakı "əksinqilabçıların" taleyindən xəbərsizik. Lakin Əmirov və Stepan Lalayevin başçılıq etdikləri "Qırmızı sosialist" dəstələrinin Şamaxının bütün müsəlman əhalisini məhv etdiyini, qırxadək kəndi viran qoyduqlarını bilirik. Bu müharibə ərzində gördüyümüz müsibətlər, Stepan Lalayevin Şamaxıdakı müsəlmanların başına gətirdiklərinin yanında heç nə imiş".[3]

1918-ci ilin yazında Şamaxıda baş verən soyqırımla bağlı Nəriman Nərimanov "Vətəndaş müharibəsinin milli rəng almaması üçün nə etməli?" adlı məqaləsində yazırdı:"Günəşin varlığını və onun gözlə görünməsini inkar etmək mümkünsüz olduğu kimi, fanatizmdən uzaq olan hər bir kəs də Zaqafqaziyada gedən vətəndaş müharibəsi nəticəsində qırılanların 99%-nin yalnız müəyyən bir millətə məxsus olduğunu görə bilər. İrəvan, Lənkəran, Quba və Şamaxı qəzasındakı hadisələr dediklərimi tam sübut edir".[4]

Göründüyü kimi, müəllif burada hakimiyyət uğrunda gedən mübarizənin sinfi deyil, milli ədavət xarakteri daşıdığını elan edir və "yalnız müəyyən bir millətin qırılması ifadəsini işlətməklə" bu soyqırımın soydaşlarımıza qarşı planlı surətdə törədildiyinə aşkar eyham vurur. Müəllif bolşevik-daşnak qüvvələri tərəfindən soyqırıma və talanlara məruz qalan Azərbaycan qəzalarının adlarını bir-bir sadalamaqla öz fikrini əsaslandırmağa cəhd göstərmişdir.

Eyni fikrə, yəni bolşevizmin Şimali Azərbaycanda sosial bazasının olmaması, xalqımız tərəfindən dəstəklənməməsi fikrinə digər müəlliflərin də əsərlərində rast gəlirik. Belə ki, Yusif Vəzir Çəmənzəminli "Mən əsla

[1] Rəsulzadə M.Ə. Unudulmaz faciə. "İstiqlal" qəz., 31 mart 1919.
[2] Rəsulzadə M.Ə. Qafqasiya türkləri // Azərbaycan jurnalı, 1991, № 1, s. 152-164; Yenə onun. Unudulmaz faciə. "İstiqlal" qəz., 31 mart 1919-cu il.
[3] "Azərbaycan" qəz., 21/18 oktyabr, 1918, № 14.
[4] Нариманов Н. Избранные произведения в трех томах. Т.2, 1918-1921, Баку: Азербайджан, 1989, 766 с.

bolşevizmə ziddəm. Bolşevizm heç bir millət üçün, xüsusa bizim kimi əsarətdən yenicə xilas olmuş millətlər üçün heç bir səadət gətirməz"- deyə, yazırdı.[1]

Ceyhun Hacıbəyli isə: "bolşevizm rejimi Azərbaycan xalqının ruhuna, adət-ənənələrinə, dininə tamamilə yaddır və burada yalnız Qızıl Ordu hesabına təşəkkül tapa bildi - deyə, söyləməklə Bakı Xalq Komissarlar Sovetinin ancaq Bakı, Şamaxı, Quba və digər bölgələrdə soyqırımları törətməklə siyasi hakimiyyəti ələ alması fikrini təsdiqləmişdir.[2]

1918-ci ilin yazında bolşevik-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırım adi bir qanlı hadisə deyil, gələcəkdə ondan nəticə çıxartmaq üçün öyrənilməli, təhlil edilməli, tarixi faciənin səbəbləri araşdırılmalıdır fikirləri ilə çıxış edən Üzeyir Hacıbəyli yazırdı: "bu günkü vəzifəmiz isə o qara günləri yaddan çıxarmamaq və buna görə də həmişə və hər an hazır olmaqdır. Borcumuz bu vətəni gələcəkdə hər cür təcavüzdən qorumaq və məmləkətimizi şərəflə yaşatmağa çalışmaqdır".[3]

1918-ci ilin yazında Şamaxıda və Şamaxı qəzasında törədilən soyqırımları Bakıdakı mart faciəsinin davamı kimi dəyərləndirən Mirzəbala Məmmədzadə bütün bu qırğınları bolşeviklərin "Azərbaycan istiqlal məfkurəçiliyinin fikirdən felə, nəzəriyyədən əmələ gəlməsinə mane olmaq üçün qəsdən törətdiklərini" yazırdı.[4]

XX əsrin 20-30-cu illərində Şamaxıda və Şamaxı qəzasında baş verən qanlı olaylar Qırmızı Professorlar İnstitutunun məzunları tərəfindən sinfi mübarizə kimi qələmə verilir, dinc soydaşlarımıza qarşı Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyanın bilavasitə planı əsasında bolşevik - daşnak qüvvələri tərəfindən həyata keçirilən qırğın Sovet hakimiyyətinin təntənəsi kimi təbliğ edilir.[5]

---

[1] Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə… Bakı: Gənclik, 1994, 71 s.

[2] Гаджибейли Дж. Избранное. Баку: Азербайджан, 1993, 127 с.

[3] Hacıbəyli Ü. 31 mart. "Azərbaycan" qəz., 31 mart 1919.

[4] Məmmədzadə M. Azərbaycan Milli xartiyası // Azərbaycan jurnalı, 1991, № 4, s. 133-149.

[5] Али Акбар. Апрельская революция. Баку 1-я Гос. Тип Азполиграфтреста, 1923, 19 с.; Кулиев М. Враги Октября в Азербайджане. Баку: АЗГИЗ, 1927, 55 с.; Караев А.Г. Из недавнего прошлого. Баку: Бакинский рабочий, 1926, 127 с.; Попов Г. Железный полк им. 26. Баку: АЗГИЗ, 1927, 78 с.; Сеф С.Е. Борьба за Октябрь в Закавказье. Тбилиси: Зак. книга, 1932, 162 с.; Yenə onun. Революция в 1917 года в Закавказье (Документы и материалы). Тбилиси, Зак. Книга, 1927, 391 с.; Раевский А. Партия Мусават и ее контрреволюционная

XX əsrin 40-50-ci illərindən SSRİ-nin süqutunadək bu problemlə bağlı yazılan tədqiqat əsərlərində soyqırım "Müsavat qiyamı" və ya vətəndaş müharibəsi kimi qələmə verilir, hadisələrin əsl mahiyyəti ciddi şəkildə saxtalaşdırılır, "Müsavat" partiyası soyqırım zamanı Bakı Xalq Komissarlar Sovetinin ən yaxın müttəfiqi olan Daşnaksütyunla eyni siyasi cəbhədə, Sovet hakimiyyətinin düşməni kimi təsvir edilirdi.

Hadisələrə eyni yanaşma tərzi ilə akademik Püstəxanım Əzizbəyovanın "Lenin ideyalarının təntənəsi" əsərində də rastlaşırıq: "Bakıda 1918-ci ilin martında Müsavat əksinqilabi qiyamının yatırılmasından sonra, Sovet hakimiyyəti Şamaxı, Lənkəran, Quba, Salyan, Cavad qəzalarında da təntənəli surətdə qələbə çaldı, bolşevik təşkilatlarının nüfuzu Azərbaycan zəhmətkeşləri arasında görünməmiş dərəcədə artdı".[1]

Tədqiq edilən dövrün tanınmış tədqiqatçılarından olan, AMEA-nin müxbir üzvü Zülfəli İbrahimovun bəhs edilən hadisələrlə bağlı çoxsaylı kitablarından birində oxuyuruq: "Müsavatçılar 1918-ci ilin martın 30-da Bakıda antisovet qiyamı qaldırdılar. Zaqafqaziya əksinqilabının Bakı üzərinə basqını məğlubiyyətlə qurtardıqdan sonra Azərbaycanın bir sıra qəzalarında Sovet hakimiyyətinin qalibiyyətli yürüşü başladı".[2]

1918-ci ilin yazında Şamaxıda baş verən soyqırıma məhz bu cür siyasi qiymətin verilməsi Sovet tarixşünaslığı üçün səciyyəvi idi.

Yalnız müstəqillik illərində soyqırıma düzgün, elmi-obyektiv prizmadan yanaşılması baş verdi. Məhz müstəqillik illərində tədqiqatçılarımız hadisələri obyektiv surətdə əks etdirən mənbələrlə işləmək imkanı əldə etdilər.

1990-cı ildə akademik Ziya Bünyadovun redaktəsi ilə nəşr edilən "Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə" adlı sənədlər toplusunda 1918-ci ilin yazında Şamaxıda və Şamaxı qəzasında törədilən qətl və qarətlərə

---

работа. Баку: АЗГИЗ, 1929, 64 с.; Беленький С.; Манвелов А. Революция 1917 года в Азербайджане (хроника событий). Баку: АЗГИЗ, 1927, 253 с.; Ратгаузер Я. Революция и гражданская война в Баку 1917-1918. Баку: Красный Восток, 1927, 221 с.; Эфендиев С. Борец за интересы Азербайджанской бедноты. Баку: Азернешр, 1930, 32 с.; Бурджалов Э. Двадцать Шесть Бакинских Комиссаров. Москва: Госполитиздат, 1938, 111 с.

[1] Азизбекова П. За Ленинской строкой. Баку: Гянджлик, 1987, 229 с.

[2] İbrahimov Z. V.İ.Lenin və Azərbaycan sosialist inqilabının qələbəsi. Bakı: Azərnəşr, 1970, 526 s.

dair Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatskinin həmin Komissiyanın sədri Ə.Xasməmmədovun məruzəsi işıq üzü gördü[1] .

Bəhs edilən problemlə bağlı fundamental tədqiqat əsəri yazan professor Anar İsgəndərov 1918-ci ilin martında Bakı qırğınlarından sonra Azərbaycanın qəzalarında soyqırım və qətlləri davam etdirən bolşevik-daşnak birləşmələrinin insanlığa xələl gətirən cinayətkar əməllərini tarixşünaslıq müstəvisində tədqiq etmiş, sovet, xarici, mühacir və vətən tarixçilərinin əsərlərini müqayisə, analiz-sintez kimi məntiqi təhlil üsulları ilə araşdıraraq, son dərəcə maraqlı elmi-obyektiv nəticələr əldə etməyə nail olmuşdur.[2]

Solmaz Rüstəmova-Tohidinin 1918-ci ilin yazında Şamaxıda və Şamaxı qəzasında törədilən qırğınlara dair Fövqəladə Təhqiqat Komissiyasının materiallarını külliyyat halında özündə cəmləşdirən iki cilddən ibarət "Şamaxı 1918-ci ilin mart-iyulu. Azərbaycan qırğınları sənədlərdə" adlı kitablarının nəşri tədqiq olunan problemin öyrənilməsi sahəsində ən uğurlu addımlardan biri sayılır. Bu kitabların birinci cildi bəhs edilən dövrdə Şamaxı şəhərində, ikinci cildi isə Şamaxı qəzasının kəndlərində cərəyan edən soyqırım və talanlara həsr edilib.[3]

---

[1] Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı: Elm, 1990, 381 s.

[2] İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı: Adiloğlu, 2006, 391 s.; Yenə onun. Bakı Xalq Komissarları Sovetinin xarici tarixşünaslığı // Tarix və onun problemləri. Elmi-nəzəri, metodiki jurnal. Bakı, 1997, № 2, s. 177-190; Yenə onun. Mart qırğını 20-30-cu illər tarixşünaslığında // Tarix və onun problemləri. Bakı, 1995, № 4, s.21-30; Yenə onun. 1917-1920-ci illər Azərbaycan tarixşünaslığına yeni baxış / Azərbaycan tarixi problemləri üzrə gənc tədqiqatçıların birinci respublika elmi konfransının məruzələri. I hissə, Bakı, 1991, s.95-97; Yenə onun. 1918-1920-ci illərdə türk müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım / 31 mart Azərbaycanlıların soyqırımı günüdür. Elmi-praktik seminar. Bakı, Elm və təhsil, 2015, 231 s.; Yenə onun. 1918-ci il mart qırğınının tarixşünaslığı. Bakı, 1997, 148 s.; Yenə onun. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: Elm və təhsil, 2012, 226 s. Yenə onun. Документы Чрезвычайной Следственной Комиссии 1918-1920. Баку, Елм вя тяхсил, 2014, 455 с.

[3] Рустамова-Тогиди С.З. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. В 2-х томах, Том 1, Баку: Гисмет, 2013, 855 с.; Том 2, Баку: Гисмет, 2013, 888 с.

Bəhs edilən dövrdə Şamaxı şəhərində və Şamaxı qəzasında baş vermiş soyqırım və talanlar Ataxan Paşayevin "Açılmamış səhifələrin izi ilə", Aslan Xəlilovun "Zaqafqaziyanın müsəlman əhalisinə qarşı soyqırımları", o cümlədən Yaqub Mahmudovun redaktorluğu ilə nəşr edilən "Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımı" elmi məqalələr toplusu və bir çox digər tədqiqat əsərlərində öz əksini tapmışdır.[1]

**Tədqiqat işinin mənbə bazası.** Tədqiqat işinin gedişində mövzu ilə bağlı xeyli sayda arxiv sənədləri elmi dövriyyəyə cəlb edilmiş və təhlil olunmuşdur. Əsasən Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA) 100, 106, 700, 1061-ci və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivinin (ARPİİ SSA) 277-ci fondlarında toplanmış sənədlərdən geniş istifadə olunmuşdur.

Qeyd etmək lazımdır ki, arxiv sənədlərinin bir qismi nəşr olunmuşdur. 2001-ci ildə Türkiyədə "Azerbaycan belgelerinde ermeni sorunu (1918-1920)" adlı sənədlər toplusu çapdan çıxmışdır. 108 fəslə bölünmüş 655 səhifədən ibarət olan bu sanballı sənədlər külliyyatında ilk dəfə Fövqəladə Təhqiqat Komissiyasının sənədləri işıq üzü görmüşdür. Nəşri hazırlayan Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayevdir. Külliyyat çox böyük zəhmətin nəticəsidir və burada Azərbaycanda ermənilər tərəfindən törədilmiş qırğınları təsdiq edən şahid ifadələri və Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarları toplanmışdır. Burada həmçinin Şamaxı şəhərində və Şamaxı qəzasında baş vermiş faciəli qırğınları və qətliamları isıqlandıran çoxlu sənədlər də yer almışdır. Lakin külliyyatda verilmiş sənədlərin məzmunu onun adına heç cür uyğun gəlmir, çünki sənədlər erməni məsuliyyətsizliyini deyil, onların azərbaycanlılara

[1] Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 535 s.; Yenə onun. Геноцид, депортации и территориальные претензии армян к Азербайджанскому народу (ХЫХ-ХХ вв.), Баку: Элм вя Тяхсил, 2013, 153 с.; Халилов А.А. Геноцид против мусульманского населения Закавказья в исторических источниках. Баку: Азербайджан, 2000, 166 с.; Геноцид Азербайджанского народа 1918 года. Организаторы и палачи. Под ред. Я.М.Махмудова, Баку, Турхан, 2013, 271 с.; Azərbaycan Demokratik Respublikası. Elmi məqalələr toplusu. Bakı: Azərnəşr, 1992, 119 s.; Насиров Т. Борьба за власть в Азербайджане. Баку: Азернешр, 1993, 119 с.; Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. Beynəlxalq elmi-praktik konfransın materialları. Quba, 29 mart 2013; Исторические факты о деяниях армян на Азербайджанской земле. Баку: Нурлан, 2003, 358 с.

qarşı həyata keçirdikləri məhz soyqırım siyasətini təsdiq edir və sübuta yetirir.

Dissertasiya işinin əsas mənbə bazası, qeyd olunduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci ilin iyulun 15-də Xarici İşlər Nazirliyinin təşəbbüsü və Nazirlər Şurasının qərarı ilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyasının topladığı sənədlərdir.

Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə fəaliyyət göstərmiş Komissiyanın sənədləri 1918-ci ilin mart-iyul aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının 110 kəndində dinc soydaşlarımıza qarşı daşnak-bolşevik birləşmələrinin törətdiyi soyqırım və talanları özündə obyektiv surətdə əks etdirən ən etibarlı ilkin mənbədir. Həmin sənədlərin böyük əksəriyyəti ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmiş və təhlil olunmuşdur.

Mövzunun araşdırılmasında tədqiq olunan problemə aidiyyatı olan toplulardan, tarixi əsərlərdən, habelə dövri mətbuat materiallarından da geniş surətdə istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi 1918-ci ilin martında bolşeviklərin Bakıda türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımı, ondan sonra təşkil edilən Bakı Xalq Komissarlar Sovetinin öz siyasi təsir dairəsini Azərbaycanın digər bölgələrinə də yaymaq məqsədilə bolşevizm pərdəsi altında Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şamaxı şəhəri və Şamaxı qəzasında həyata keçirdikləri soyqırımın obyektiv-subyektiv səbəblərini ilkin mənbə olan Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında araşdırmaqdır.

Qarşıya qoyulan bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- 1918-ci ilin yazında siyasi hakimiyyəti Cənubi Qafqazda yalnız Bakı şəhəri ilə məhdudlaşan bolşeviklərin yerli əhali arasında sosial dayağa, heç bir nüfuza malik olmaması səbəbindən və deməli, qanuni yolla hakimiyyətə gəlmək imkanlarının qeyri-mümkün, ən yaxşı halda isə məhdud olması səbəbindən istər Bakıda, istərsə də Azərbaycanın digər bölgələrində, o cümlədən Şamaxıda və Şamaxı qəzasında soyqırım siyasətinin həyata keçirilməsində bilavasitə maraqlı olmaları Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq olunmuş;

- Mərkəzin Azərbaycanda, o cümlədən Şamaxı şəhəri və Şamaxı qəzasının kəndlərində türk-müsəlman əhalisinə qarşı məqsədyönlü şəkildə planlaşdırdığı soyqırım və talanları məhz daşnak qüvvələrinin əli ilə həyata keçirməsi cəhdləri, xüsusən də Bakı Xalq Komissarlar Sovetinin sədri

Stepan Şaumyanın bu işə rəhbərlik etməsi, hərtərəfli dəstəklənməsi Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında araşdırılmış;

- Müxtəlif siyasi partiyalarda təmsil olunmalarına baxmayaraq, soyqırım zamanı vahid cəbhədə birləşməyi bacaran erməni-daşnak qüvvələrinin Şamaxıda və Şamaxı qəzasında törədilən soyqırım və talanların xüsusi və görünməmiş qəddarlıqla həyata keçirilməsinin obyektiv səbəbləri Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilmiş;

- Şamaxı şəhəri və Şamaxı qəzasında baş verən soyqırım və talanların əsas icraçılarına və müqəssirlərinə Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyan tərəfindən bəraət qazandırılaraq cinayət məsuliyyətindən azad edilməsi, ümumiyyətlə, soyqırımın ermənilərin "Böyük Ermənistan" qurmaq ideyasının həyata keçirilməsi üçün Azərbaycan xalqına qarşı tarix boyu tətbiq edilən fiziki-mənəvi işgəncələr, soyqırım siyasətinin bir halqası olması Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında sübuta yetirilmiş;

- Fövqəladə Təhqiqat Komissiyasının sənədləri analiz-sintez, səbəb-nəticə, çoxsaylı faktoloji materialların, həmçinin zərərçəkənlərlə hadisələrin törədilməsində müqəssir sayılanların ifadələrinin müqayisəli təhlili əsasında tədqiq edilmişdir.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya üzərində işləyərkən Fövqəladə Təhqiqat Komissiyasının sədri Ələkbər bəy Xasməmmədovun soyqırımın tədqiqinə dair Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Ədliyyə Nazirinə və Bakıdakı müttəfiq qoşunlarının komandanlığına məruzəsində hadisələrin baş vermə səbəbləri, inkişaf dinamikasına təkan verən ictimai-siyasi qüvvələrin məramı və məqsədləri, taktika və strategiyası sırf Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında elmi-obyektiv prizmada tədqiq edilmişdir. Bundan başqa, Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatskinin həmin Komissiyanın sədrinə məruzəsində Şamaxıda və Şamaxı qəzasının kəndlərində soydaşlarımızın soyqırım zamanı məruz qaldıqları fiziki və mənəvi zorakılıqlara, o cümlədən mülki məsələlərə dair çoxsaylı fakt və arqumentlərin tarixi, hüquqi, ictimai-siyasi, sosial-iqtisadi aspektdə olan məqamlarının elmi-obyektiv tədqiqinə cəhd göstərilmişdir.

Dissertasiyanın tədqiq zamanı, təkcə zərərçəkənlərin istintaqın gedişi zamanı verdikləri şahid ifadələri deyil, həmçinin soyqırımda bu və ya digər dərəcədə məsuliyyət daşıyan şəxslərin ifadələri də müqayisəli təhlil və qarşılaşdırma prinsipləri əsasında araşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** 1918-ci ilin mart-iyul aylarında Şamaxı şəhəri və Şamaxı qəzasının kəndlərində Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyanın məqsədyönlü planı əsasında türk-müsəlman əhalisinə qarşı erməni-daşnak qüvvələri ilə birgə həyata keçirdiyi soyqırım və talanlar Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında ilk dəfə olaraq tədqiqata cəlb olunmuşdur:

- İlk dəfə olaraq ayrı-ayrılıqda həm Şamaxıda, həm də Şamaxı qəzasında heç bir obyektiv səbəb olmadan soydaşlarımızın yalnız milli-dini mənsubiyyətinə görə məruz qaldıqları fiziki-mənəvi zorakılıqlar, soyqırım və talanlar, bu cinayət əməllərinin baş vermə səbəbləri və nəticələri, hadisələrin gedişatı, təfərrüatları, inkişaf dinamikası, eyni zamanda ermənilərin Avropa və Amerikada əleyhimizə yönələn gözdənsalma kampaniyasına necə nail olmaları Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilmişdir.
- Bu gün iqtisadi-siyasi nailiyyətləri ilə təkcə Cənubi Qafqazda deyil, bütün dünyada söz sahibinə çevrilən Azərbaycanın uğurlarını həzm edə bilməyən ermənilər əleyhimizə geniş antitəbliğat kampaniyası aparır, azərbaycanlılarla sülh şəraitində yaşaya bilmədiklərini bütün dünyaya bəyan edir, hətta ən yaxın tarixi keçmişimizi belə, öz xeyirlərinə saxtalaşdıraraq, "zavallı erməni" obrazını yaratmağa çalışırlar. Məhz bu baxımdan, 1918-ci ilin mart-iyul aylarında erməni daşnaklarının bolşevizm adı altında Şamaxıda və Şamaxı qəzasında təkcə insanların həyatlarına deyil, malik olduqları daşınan və daşınmaz əmlaka hansı formada və nə üçün qəsd etdikləri milli-mənəvi dəyərlərimizi - məscidlərimizi hansı məntiqdən çıxış edərək dağıtdıqları, yandıraraq kül etdikləri Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilərək, geniş ictimaiyyətə təqdim edilmişdir.

Milli hərəkatımıza, istiqlalımıza qənim kəsilən erməni daşnakları tarixin bütün dönəmlərində Azərbaycanın tərəqqisini istəməyən qüvvələrlə bir yerdə olmuş və ya onların antiazərbaycan siyasətini dəstəkləmişlər. Şamaxıda və Şamaxı qəzasında törədilən soyqırım bu baxımdan istisna deyildir. 1918-ci ilin yazında daşnakların Şamaxıda və Şamaxı qəzasında törətdikləri soyqırım və talanları özündə ən xırda təfərrüatları ilə, obyektiv surətdə əks etdirən Fövqəladə Təhqiqat Komissiyasının sənədləri bədnam qonşularımızın əsl kimliyini çox aydın bir şəkildə bütün dünya ictimaiyyətinə tanıdır. Bu sənədlərin təhlil edilərək elmi dövriyyəyə cəlb olunması ermənilərin istər ötən əsrin əvvəllərində, istərsə də bu gün dövlətçiliyimizə qarşı apardığı informasiya müharibəsindəki

dezinformasiyanın, tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısını almağa kömək edir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən Vətən tarixi üzrə ümumi xarakterli əsərlərin yazılmasında, konkret olaraq isə bədnam qonşularımızın torpaqlarımıza olan iddiaları, əsassız bəyanatlarını özündə əks etdirən antihumanist, bəşəri və mənəvi dəyərlərə zidd, heç bir elmi əsası olmayan, tarixi saxtalaşdırmağa xidmət edən ideoloji mübarizəsinə qarşı hazırlanan kitabların, bukletlərin, siyasi broşürlərin, erməni daşnaklarının xalqımıza qarşı zaman-zaman yeritdikləri soyqırım siyasətinin geniş ictimaiyyətə çatdırılmasına xidmət edən kitab və kitabçaların hazırlanmasında, soyqırım qurbanlarının anım mərasimləri zamanı çıxışların hazırlanmasında, beynəlxalq ictimaiyyətə erməni vandalizminin əsl simasını tanıtmaq üçün hazırlanan bəyanat və müraciətlərin hazırlanmasında, o cümlədən geniş oxucu kütləsini soyqırımla tanış etmək üçün kitab, kitabça, məlumat xarakterli açıqcaların hazırlanmasında isitfadə edilə bilər.

1918-ci ilin yazında Şamaxıda və Şamaxı qəzasının kəndlərində bolşevik-daşnak birləşmələri tərəfindən həyata keçirilən soyqırım və talanlara dair ilkin və ən etibarlı mənbə olan Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında əldə edilən tarixi bilgilər xalqımıza qarşı erməni daşnaklarının yeritdikləri qırğınlara həsr edilən konfrans və elmi simpozium materiallarının, o cümlədən ali və orta məktəb dərsliklərinin hazırlanmasında da geniş surətdə istifadə edilə bilər. Dissertasiyanın elmi nəticələrindən gələcəkdə soyqırım tariximizi tədqiq edən tədqiqatçılar, KİV işçiləri, geniş oxucu kütləsi də bəhrələnə bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları doktorantın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrində, habelə respublika və beynəlxalq elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsildən, nəticə və istifadə edilmiş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivə göstərilmiş, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırımın sovet tarixşünaslığında və müstəqillik dövrünün tədqiqatlarında araşdırılması"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir.

**"1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırımın Sovet tarixşünaslığında təhrifinin Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında araşdırılması"** adlanan birinci yarımfəslində Şamaxı qəzasında Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyanın xüsusi planı əsasında dinc əhaliyə qarşı həyata keçirdiyi qətliam və talanlar Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında ilk dəfə olaraq tədqiq olunmuşdur. Bu sənədlərdə Stepan Şaumyanın Azərbaycanda törədilən qətliamların bilavasitə təşkilatçısı və icraçısı olduğu, lakin bu məlum həqiqətin sovet tarixşünaslığında kobud şəkildə təhrif olunması, əsl reallığın ört-basdır edilərək, izinin itirilməsi, sinfi mübarizə kimi təsvir edilməsi məlum olur.

Sənədlərin nəzərdən keçirilməsi nəticəsində aydın olur ki, 1918-ci ilin yazında Şamaxı qəzasında və Azərbaycanın digər bölgələrində törədilən soyqırım əslində Rusiyadakı mərkəzi bolşevik hökuməti ilə Cənubi Qafqazda hakimiyyəti yalnız Bakı ilə məhdudlaşan yerli bolşevik təşkilatının bu hakimiyyətin coğrafiyasını Azərbaycanın qəzalarına da transifikasiya etmək üçün birgə həyata keçirdikləri planın tərkib hissəsindən başqa bir şey olmamışdır. Şamaxı qırğınları ilə bağlı arxiv sənədləri küçələrdə qalaq-qalaq qalaqlanan meyitlərin əllərinin, qulaqlarının, döşlərinin, başlarının kəsilərək eybəcər hala salınması, hələ diri ikən insanların sinələri üstündə od qalanması, nüfuzlu din xadimlərinin məscidin içərisində üz dərisinin soyulması kimi insanlığa xələl gətirən vəhşilikləri baş verən olayların məqsədyönlü şəkildə, xüsusi qəddarlıqla həyata keçirildiyini bir daha sübut edir. Bütün bunlar 1992-ci ildə erməni faşistlərinin sovet əsgərləri ilə birgə Xocalıda törətdiyi faciəni xatırladır. İllər, qərinələr dəyişsə də, ermənilərin xalqımıza qarşı bəslədikləri kin, küdurət və düşmən xislətinin nə zamansa dəyişə biləcəyini şübhə altına alır.

Aparılan araşdırmalar göstərir ki, sovet dövrü tarixşünaslığı ən etibarlı mənbə sayılan Fövqəladə Təhqiqat Komissiyasının sənədlərini "məxfi qrif" altında saxlamaqla təkcə bəhs edilən dövrdə məhz həmin dövlətin siyasi maraqlarına uyğun surətdə həyata keçirilən Şamaxı qırğınlarını deyil, həm də tarixi proseslərin inkişaf dinamikasını saxtalaşdırmaqla, bütövlükdə isə, hadisələri istədiyi məcrada "tədqiq" və ən əsası təqdim etməklə tarixi həqiqətləri gizlətməyə çalışmışdır.

Birinci fəslin ikinci yarımfəsli **"Müstəqillik illərində 1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırımın Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilməsi"** adlanır. Burada Azərbaycan müstəqillik əldə etdikdən sonra tədqiqatçılarımızın XX əsrin əvvəllərində, 1918-1920-ci illərdə Cənubi Qafqazda mühüm geosiyasi, geoiqtisadi və geostrateji mövqeyi ilə böyük önəm kəsb edən vətənimizdə iri güc mərkəzlərinin öz nüfuz dairələrini möhkəmləndirmək üçün apardıqları gərgin siyasi mübarizənin obyektiv səbəblərinin araşdırılmasına geniş şəkildə toxunulmuşdur. Uzun illər sovet tarixşünaslığnda xarici imperialist qüvvələrin xidmətçisi kimi tədqim edilən, əslində isə bəhs edilən dövrdə milli istiqlal hərəkatımızın önündə duran Müsavat partiyasının bolşevik-daşnak cütlüyünə qarşı mübarizəsi ətraflı təsvir edilmişdir.

Dissertasiyanın **"Şamaxı şəhərində həyata keçirilən soyqırım Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində"** adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. "Şamaxı şəhər əhalisinə qarşı soyqırım"adlanan birinci yarımfəsildə ilk dəfə olaraq Bakı Xalq Komissarlar Sovetinin Bakıda törətdiyi qanlı mart soyqırımını eyni ssenari üzrə Şamaxıda da həyata keçirməsi, burada türk-müsəlmanların məruz qaldıqları fiziki-mənəvi zorakılıqlar, qırğın və talanlar Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiq edilmişdir.

Tədqiqatın nəticəsində məlum olur ki, Bakıdakı mart qırğınlarını eyni vaxtda Şamaxıda da törətməklə, bu strateji ərazidə möhkəmlənmək, daha sonra məhz bu ərazidən həm şimal, həm də cənub istiqamətində bolşevik-daşnak qüvvələrinin təcavüzkar yürüşlərini bütün coğrafi koordinatlarla davam etdirməklə Azərbaycanda türk-müsəlman əhalisinin fiziki məhvinə total şəkildə nail olmaq, daha sonra öz hakimiyyətlərini bütün Cənubi Qafqazda möhkəmləndirməyi öz qarşılarına məqsəd qoymuşdular. Bu fəsildə sovet tarixşünaslığında "mart qələbəsinin" davamı, məntiqi sonluğu, nəticəsi kimi təqdim edilən qırğınların əsl mahiyyəti çoxsaylı şahid

ifadələri vasitəsilə daha aydın və obyektiv şəkildə təsvir edilmiş və müqayisəli şəkildə təhlil edilmişdir.

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Novatski, Kluqe və d. Şamaxıda soyqırımı tədqiq edərkən 300-dən artıq şahiddən ifadə almağa nail olmuşlar. Bu ifadələr təkcə zərərçəkənlərdən deyil, eləcə də hadisədə günahkar bilinən şəxslərdən və şəhərin qeyri-müsəlman əhalisindən də alındığına görə müstəqillik dövrü tarixçilərinə baş verən hadisələrə həmin şahidlərin, o cümlədən neytral mövqedə dayananların prizmasından yanaşmaq imkanları vermişdir.

Bu fəsildə dövrün mənbələrinə əsaslanaraq göstərilir ki, Təhqiqat Komissiyası sənədlərindən fərqli olaraq, sovet dövrü nəşrlərinin heç birində bolşevik-daşnak cütlüyünün xalqımıza qarşı törətdiyi soyqırımlarından bircə kəlmə belə söhbət getmir, əksinə bu soyqırıma Bakının "Sovet Rusiyasının əlində qalması uğrunda aparılan mübarizə" kimi bəraət qəazandırılırdı. Məlum olur ki, hələ bu da azmış kimi Şamaxıda və Azərbaycanın digər bölgələrində bolşevik-daşnak cütlüyü tərəfindən türk-müsəlman əhalisinə qarşı yeridilən təcavüz, qırğın və talanlar bir çox hallarda "əksinqilabçı qüvvələrin tamamilə darmadağın edilməsi" kimi təqdim edilmiş, erməni daşnaklarının vəhşiliyi isə "parlaq qələbə" kimi şişirdilir.

Fövqəladə Təhqiqat Komissiyasının sənədləri Şamaxıda baş verən soyqırımı öyrənmək, onları obyektiv surətdə, elmi şəkildə geniş ictimaiyyətə təqdim etmək üçün müstəsna əhəmiyyət kəsb edir. Adı çəkilən sənədləri diqqətlə araşdırarkən erməni daşnaklarının xeyir-duası və bilavasitə dəstəyi ilə Şamaxıya iki dəfə hücum edərək böyük miqyaslı faciə, qırğın və talanlar törətdikləri bəlli olur.

Dissertasiyanın ikinci fəslinin **"Şamaxı şəhər əhalisinin daşınan və daşınmaz əmlakının məhv edilməsi"** adlanan ikinci yarımfəslində ermənilərin Şamaxıda 1918-ci il mart-iyul aylarında həyata keçirdikləri qətllər və qırğınlar, qarət və talanlarla bərabər, şəhər əhalisinin daşınan və daşınmaz əmlakının məhv edilməsi kimi hadisələrlə müşayiət olunması barədə məlumat verilir.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Şamaxı şəhərinin müsəlman əhalisinin daşınan və daşınmaz əmlakının talan edilməsi təkcə forma və məzmun baxımından deyil, icra edilməsi baxımından da həm Bakıda və Qubadakı, həm də Azərbaycanın digər qəza və şəhərlərində həyata keçirilən qarətlərlə tam eyniyyət təşkil edir. Belə ki,

bu talanların hamısı həm Şamaxıda, həm də digər ərazilərdə eyni üslub və ardıcıllıqla yerinə yetirilirdi.

Fövqəladə Təhqiqat Komissiyasının üzvü Andrey Novatski "1918-ci ilin martında Şamaxıda törədilmiş dağıntıların miqyasını və dəyən ziyanın miqdarını müəyyən etmək üçün N.Vaçnadze və Məhəmməd Hacı Əliyevin birgə iştirakı ilə həmin ilin 10 oktyabrında tərtib etdiyi baxış protokolunda Şamaxıda soyqırım zamanı talan və qarətlərin geniş mənzərəsini yaratmışdır. Həmin protokoldan bəlli olur ki, 1918-ci ilin 18 martında Şamaxının müsəlmanlar yaşayan hissəsinə hücum edən bolşevik-daşnak qüvvələri bir neçə min müsəlman əhalisini milli-dini mənsubiyyətinə görə xüsusi qəddarlıqla-ətraflarını doğramaqla, qulaq və burunlarını kəsmək, gözlərini çıxartmaqla qətlə yetirmiş, onların ümumi məbləği bir milyard manatdan artıq olan daşınan və daşınmaz əmlaklarını qarət etmiş, evlərini yandıraraq külə çevirmişlər[1].

Aparılan araşdırmalar göstərir ki, şahid ifadələrinin hamısı ermənilərin evlərə soxularaq qarət və qətllər törətdiyini təsdiq etməklə yanaşı, həm də orta əsr səlib yürüşlərini xatırladır. Belə ki, evlərə soxulan ermənilər sakinlərdən tələb olunan məbləği almaq müqabilində onlara guya aman verəcəkləri vədinə əməl etmirdilər. Halbuki, nə qədim, nə də orta əsrlər, nə də yeni və çağdaş dövrdə işğalçı və istilaçıların heç biri yalnız erməni xislətinə xas olan belə alçaqlığa əl atmamış, insanlıq ləyaqətinə, insanlıq adına belə ləkə vurmamışlar.

Fövqəladə Təhqiqat Komissiyasının sənədləri ilə tanışlıq onu deməyə əsas verir ki, hətta təhqiqat komissiyasına verilən ifadələrdə obyektivliyə xələl gətirən bir hal belə qeydə alınmamışdır. Çünki, ifadə verən şəxslər o qədər səmimi və tam ifadə verirdilər ki, erməni faşizminin bütün eybəcərliyini görüb, yaşasalar belə, hər hansı bir ermənininin onlara azacıq kömək etməyini belə gizlətmir, açıq etiraf edirdilər. Materialların tədqiqi göstərir ki, Şamaxı sakinlərinin Fövqəladə Təhqiqat Komissiyasına onlara dəyən maddi ziyanla bağlı müraciətləri, əsasən, ərizə və xahişnamə formasında olub, zərərçəkənlərə dəymiş maddi ziyanı, əşyaların adları və hər bir oğurlanmış və ya dağıdılmış, yandırılmış daşınan və daşınmaz əmlakın konkret dəyərini göstərməklə tərtib olunmuşdur. Bu ərizə və xahişnamələrdə çox zaman oğurlanmış əşyaların siyahısı da olur ki, bu da

---

[1] ARDA, f. 1061, siy.1, iş 106, v. 2-4.

baş verən qarət və oğurluq hadisələri haqqında tam təfərrüat yaratmağa imkan vermişdir.

Dissertasiyanın **“Şamaxı qəzasında həyata keçirilən soyqırım Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində”** adlanan üçüncü fəsli də öz növbəsində iki yarımfəsildən ibarətdir.

**“Şamaxı qəza əhalisinə qarşı soyqırım”** adlanan birinci yarımfəsildə Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə zərərçəkmiş ifadələrinin təhlilinə geniş yer verilmişdir.

Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, Şamaxı qəzasının110 kəndi soyqırım zamanı bolşevik-daşnak təcavüzünün qurbanı olub, o cümlədən 105 kənd bilavasitə həm dağıntılara və qarətlərə, həm də yanğınlara məruz qalıb.

Şamaxı qəzasının kəndlərində soyqırımlardan zərərçəkənlərin ifadələrindən bir daha Şamaxıda və Şamaxı qəzasında insanların görünməmiş amansızlıqla qətlə yetirilməsi, işgəncə və təhqirlərə məruz qalması, Bakı Xalq Komissarlar Sovetinin xalqımızı mənən alçaltmaq, qüruruna toxunmaq, bu yolla da azadlıq və istiqlalımızı boğmaq istəyini, antiazərbaycan mahiyyətli siyasətini aydın şəkildə biruzə verir. Şamaxı qəzasında dinc əhalinin bolşevik-daşnak qüvvələri tərəfindən kütləvi surətdə soyqırıma məruz qalması ermənilərin əsrlər boyu xalqımıza qarşı bəslədikləri əsassız və qərəzli kin və küdurətin aydın göstəricisidir. Qəzanın ətraf kəndlərinin sosial-iqtisadi strukturunu iflic vəziyyətə salmaqla, bu kəndlərdən Şamaxıya göstərilə biləcək hər cür yardımın qarşısını almaq da daşnakların əsas hədəflərindən biri olmuşdur. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən məlum olur ki, ermənilər Şamaxı qəzasında hətta milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə və dini obyektlərimizə - məscidlərə, pirlərə, ocaqlara da hörmətsizliklə yanaşmışlar. Daşnaklar təkcə Şamaxıda 13 məscidi yandırmışlar.

Bu yarımfəsildə də verilən məlumatlardan aydın olur ki, Şamaxı qəzasında dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğınlar əslində, mahiyyət etibari ilə ermənilərin “Böyük Ermənistan” yaratmaq xülyasının tərkib hissələrindən imiş.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli **“Şamaxı qəza əhalisinin daşınan və daşınmaz əmlakının məhv edilməsi”** adlanır. Burada bütövlükdə Şamaxı qəzası üçün əhalinin daşınan və daşınmaz əmlakının məhv edilməsi ilə bağlı komissiyaya verdikləri ifadə və şikayətlər tədqiq olunmuşdur.

Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Şamaxı qəzasının kənd icmalarına hər bir kəndə, ümumilikdə hər bir icmaya məruz qaldıqları insan itkiləri və maddi ziyanın məbləğini əks etdirən ümumuləşdirilmiş sənədlə, məsələn akt və ya icmanın ümumi fikrini əks etdirən qərarla Komissiyaya müraciət etməyi tövsiyə edirdi. Kənd icmalarının işini asanlaşdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyasının üzvləri hətta belə sənədlərin nümunələrini hazırlayaraq hər bir icmaya göndərirdilər. Belə sənəd nümunələrində yandırılan və ya yandırılaraq tamamilə məhv edilən evlərə, məscidlərə, o cümlədən talan edilən ev əşyalarına, qarət edilən əmlaka, oğurlanan mal-qaranın sayına, məbləğinə və s. aid göstəricilər üzrə xüsusi xanalar olurdu. Bütün bu tədbirlər isə Şamaxı qəzasının kəndlərində bolşevik-daşnak qüvvələri tərəfindən həyata keçirilən talan və qarətlərin real mənzərəsini yaratmağa imkan verirdi.

Fövqəladə Təhqiqat Komissiyası məhz bu cür gərgin və düzgün təşkil edilmiş fəaliyyət prosesi nəticəsində Şamaxı qəzasının hər bir kəndi üzrə faciə qurbanlarının sayını və dəymiş maddi ziyanın məbləğini müəyyən edə bildi. Məsələn, Nəvai kəndində talan və qarətlər nəticəsində kəndə dəyən maddi ziyanın məbləği 60 milyon, yəhyalı kəndi üzrə 22 milyon, Bağırlı kəndi üzrə 12,5 milyon manat təşkil etməsi müəyyən edilmişdir.

Şamaxı qəzasının bir sıra kəndləri soyqırım zamanı qətl və qarətlərə məruz qalmışlar. Belə ki, ikinci yürüş zamanı erməni silahlı dəstələri birinci dəfə ələ keçirə bilmədiklərini, məhz bu dəfə tam şəkildə yağmalamağa müyəssər olmuşlar.

Dissertasiyanın məhz bu fəslində erməni silahlı dəstələrinin Şamaxı qəzası kəndlərində artıq nəyi, nə vaxt, hansı formada qarət etmələrini əvvəlcədən planlaşdırdıqları qənaətinə gəlmək olur.

Şamaxıda və Şamaxı qəzasında törədilən qətl və talanlar əslində Sovet Rusiyasının imperiyapərəst məqsəd və məramlarından irəli gələn siyasi maraq və istəklərinin məntiqi nəticəsi idi.

Digər tərəfdən baş verən qətl və talanlar öz azadlığını, müstəqil dövlət qurmaq istəyini canından əziz tutan mübariz bir xalqın əsrlər boyu apardığı istiqlal mücadiləsinə qarşı yeridilən siyasi tədbirlər zəncirinin bir həlqəsi, vəsiləsi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin baş verən olayları araşdırmaq üçün təşkil etdiyi Fövqəladə Təhqiqat Komissiyasının tarixi əhəmiyyət daşıyan, real gerçəklikləri obyektiv şəkildə əks etdirən sənədlərin illər boyu ya düşünülmüş şəkildə üstündən sükutla keçilmiş, oradakı acı həqiqətlərin işıq üzü görməsinə sovet ideoloji mexanizminin "vintciyi" olan tarixçilərimiz,

sovet qiyafəli erməni millətçi yazarları hər vəchlə mane olmuşlar, ya da tamamilə əks istiqamətdə o sənədlərin mahiyyəti təhrif edilmişdir.

Bu sənədlərdə əks olunan erməni daşnak vandalizmi-bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilə bilən qətliamlar, onların icra olunma dəstixətti XX əsrin sonlarından Azərbaycan Respublikasında başlayan erməni separatizmi, qətliamları, Xocalı soyqırımı, Sumqayıt hadisələri, ümumi millətçi proqram və taktika ilə tamamilə səsləşir.

Bütövlükdə qeyd etmək lazımdır ki, Fövqəladə Təhqiqat Komissiyasının Şamaxıda və Şamaxı qəzasında soyqırımla bağlı sənədlərinin təhlilindən aşağıdakı nəticələrə gəlmək olar:

1.Şamaxı və Şamaxı qəzasında türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətl və qarətlər, soyğunçuluq, aşkar quldurluq və yanğın aktları sırf etnik, milli və dini düşmənçilik zəminində baş vermişdir. Qətl və qarətlərin iri miqyaslı xarakter almasında şəxsən Bakı Xalq Komissarlar Sovetinin sədri Stepan Şaumyan maraqlı olmuşdur;

2.Zərərçəkənlərin Fövqəladə Təhqiqat Komissiyasına yazdığı ərizə və şikayətlərdən, verdikləri ifadələrdən Şamaxı hadisələrinin ermənilər tərəfindən əvvəlcədən hazırlandığını, qətl və qarətlərdən əvvəl, hələ mart ayının əvvəllərindən Şamaxıda yaşayan ermənilərin Mədrəsə kəndinə əvvəlcədən silah-sursat yığaraq, dinc azərbaycanlılara sataşmaları, onları incitmələri bunu sübut edir;

3.Şamaxıda və Şamaxı qəzasında türk-müsəlman əhalisinə qarşı törədilən qətl və qarətlərin Fövqəladə Təhqiqat Komissiyasının sənədləri-zərərçəkənlərin ərizə və şahid ifadələri əsasında tədqiqi sübut edir ki, ermənilər hansı siyasi partiya və təşkilatda fəaliyyət göstərməsindən asılı olmayaraq, dinc azərbaycanlıları məhv etmək, qəsb olunmuş torpaqlarımız hesabına “Böyük Ermənistan” yaratmaq konsepsiyası naminə vahid cəbhədə birləşməyi bacarırlar;

4.Şamaxıda təkcə fiziki şəxslərin deyil, eləcə də hüquqi şəxslərin qətl və qarətlərə məruz qalması, ictimai tikililərin, regionun sosial-iqtisadi inkişafı üçün strateji rol oynayan obyektlərin dağıdılması bir daha bolşevizm pərdəsi altında məharətlə maskalanmış ermənilərin gələcəyə hesablanmış strateji məqsədlərindən xəbər verir.

5.Şamaxıda, eləcə də Azərbaycanın digər qəzalarında törədilən qətl və qarətlər, soyqırımlar Bakı Xalq Komissarlar Sovetinin azərbaycanlılarsız Azərbaycan siyasətini həyata keçirmək, onun sərvətlərini və strateji mövqeyini ələ keçirmək planlarını reallaşdırmaq cəhdlərini bir daha sübut etdi.

6.Şamaxıda türk-müsəlman əhaliyə qarşı törədilən qətl və qarətlər ermənilərin öz cinayətlərini məharətlə gizlətmək, yerli əhali arasında dini və etnik zəmində münaqişələr yaradaraq, məsələn, yerli molokanları öz tərəflərinə çəkərək beynəlxalq ictimaiyyəti çaşdıra bilmək məharətini də göstərmiş oldu.

7.Şamaxıda və Şamaxı qəzasında soyqırımdan zərərçəkən dinc sakinlərin Fövqəladə Təhqiqat Komissiyasına verdiyi ifadələr, ərizə və xahişnamələr Bakı Xalq Komissarlar Sovetinin xalqımıza yad və düşmən bir qurum olduğunu, Şamaxıda bolşevik ideyalarının əhali tərəfindən heç zaman dəstəklənmədiyini bir daha sübut edir.

8.Şamaxıda baş verən soyqırımın Fövqəladə Təhqiqat Komissiyasının sənədləri əsasında tədqiqi bizdən bir daha bədnam qonşularımızla ehtiyyatı əldən vermədən davranmağı tələb edir. Sərhədyanı bölgələrdə hər gün üzləşdiyimiz erməni məkri bu üzdəniraq xalqın tarix boyu xalqımıza qarşı yeritdiyi mənfur xislətin açıq təzahürüdür.

Tarix unudulanda müasir kataklizmlərlə, gözlənilməz hadisələrlə, siyasi, hüquqi, ideoloji haqsızlıq və basqılarla üzləşən xalqlar hazırlıqsız və zəif duruma düşürlər. Çünki əslində tarix ibrət və idrak vasitəsidir. Bu baxımdan bu sənədlərin öyrənilməsi elmi, tarixi və idraki əhəmiyyətə malikdir.

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış, təkliflər irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində əksini tapmışdır:**

**1.** Daşnak-bolşevik birləşmələrinin 1918-ci ilin yazında Şamaxıda müsəlman əhalisinə qarşı soyqırımları FTK sənədlərində // Tarix və onun problemləri. Bakı, 2015, № 3, s.285-289.

**2.** 1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırım Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində// Bakı Universitetinin Xəbərləri. Bakı, 2015, № 4, s.168-174.

**3.** Bolşevik-daşnak cütlüyünün 1918-ci ildə Şamaxıda həyata keçirdikləri qətliamlar Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 və hakimiyyətə qayıdışının 22-ci ildönümünə həsr olunmuş “UYDURMA ERMƏNİ SOYQIRIMI:YALANLAR, İFTİRALAR; TÜRK-MÜSƏLMAN SOYQIRIMI:FAKTLAR, HƏQİQƏTLƏR”

mövzusunda II BEYNƏLXALQ ELMİ KONFRANS. Bakı, 2015, s.292-295.

4. Bolşevik-daşnak birləşmələri tərəfindən həyata keçirilən soyqırımları Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində / “Kitabi-Dədə Qorqud”un tərcüməsi və nəşrinin 20 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans. Bakı, 2015, s.725-729.
5. Bolşevik-daşnak cütlüyünün 1918-ci ildə Şamaxıda həyata keçirdikləri qətliamlar Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində / Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı. Bakı, 2015, s.331-334.
6. Fövqəladə Təhqiqat Komissiyasının sənədləri Şamaxı qəzasında törədilən soyqırımlarını tədqiq etmək üçün mənbə kimi // Tarix və onun problemləri. Bakı, 2015, № 1, s.369-373.
7. 1918-ci ilin yazında ermənilərin Şamaxıda törətdikləri soyqırımı Sovet tarixşünaslığında / Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı. Bakı, 2016, s.497-499.
8. Şamaxı qətliamı // Tarix və onun problemləri. Bakı, 2016, № , s.367-372.
9. Документы Чрезвычайной Следственной Комиссии о Геноциде, Совершенном Болъшевистско-Дашнакскими Силами Против Мирных Жителей Шемахинского Уезда. ГИЛЕЯ. Киев, 2016, с.79-82.
10. Fövqəladə Təhqiqat Komissiyasının sənədləri 1918-ci ilin yazında Şamaxıda törədilən soyqırımlarını öyrənmək üçün mənbə kimi / “AZƏRBAYCAN VƏ ŞƏRQİ ANADOLUDA TÜRK-MÜSƏLMAN ƏHALİYƏ QARŞI SOYQIRIMLARI (1914-1920)” mövzusuna həsr olunmuş III beynəlxalq elmi konfransı. Şamaxı, 2016, s.385-388.
11. 1918-ci ilin yaz-yay aylarında bolşevik-daşnak birləşmələri tərəfindən Şamaxı qəza əhalisinin daşınan və daşınmaz əmlakının məhv edilməsi // Tarix və onun problemləri. Bakı, 2017, № 4, s.205-209.

**Мамедли С.Р.**

# Документы Чрезвычайной Следственной Комиссии как источник для изучения геноцида совершенного в 1918 году Шамахинском уезде

## Резюме

**Во введении** диссертации обосновывается актуальность и научная значимость, хронологическая рамка изучаемой темы, определяются цели и задачи исследования , дается подробный обзор источников и освещается степень изученности исследуемой проблемы. А также обосновывается методологическая основа, научная новизна и практическое значение исследования.

Первая глава под названием **«Геноцида в Шамахинском уезде, учиненной в 1918 году в советской историографии и исследованих периода»** состоит из двух подглав. В этой главе показывается, что историография советского периода фальсифицируя документы ЧСК, считающиеся первичными и надежными источниками, в целом преследовала цел обмануть общественное мнение, и исследуя и самое главное выдавал в привольной форме в трактовке на свой манер историческое события, впервые вводится в научный оборот в источниковедческих ресурсах труды отечественных историков, посвященных геноциду совершенный против Азербайджанского народа, после восстановления государственной независимости Азербайджанской Республики.

Вторая глава диссертации, названная **« Геноцид, совершенный в городе Шамаха в документах Чрезвычайной Следственной Комиссии»** также состоит из двух подглав. В этой главе освещается кровавые события и материальные убытки населения города Шемаха по документам ЧСК.

Третья глава называется **«Геноцид совершенный в Шамахинском уезде в документах Чрезвычайно Следственной Комиссии».** И эта глава состоит из двух подглав. В этой главе исследуется, в свою очередь, страшные кровопролития и материальные убытки населения Шемахинского уезда по документам Чрезвычайной Следственной Комиссии.

В **заключении** диссертации подводятся общие итоги проделанной работы, предлагаются обобщения и анализируются полученные результаты.

**Mammadli S.R.**

## Documents of the Extraordinary Inquiry Commission as a source for studying the genocide in Shamakha uyezd in 1918

**Summary**

In the **“Introduction”** was grounded the topicality and scientific significance of the theme, shown the chronological framework, elucidated the level of studying of the problem and source studying, defined the aims and goals of the research. The methodological bases, scientific novelty and practical importance of the research were grounded as well.

Chapter I of the dissertation titled as **“The distortion of the 1918 year’s Shemakha genocide in the Soviet historiography and its investigation in the years of independence”** covers two semi-chapters. In this chapter is shown that Soviet historiography through falsification of the Extraordinary Inquiry Commission’s documents which were considered as a primary and reliable source, in the whole, “investigating” and mainly presenting these events in accordance with its own desire had intended to mislead the public opinion and the Azerbaijani historians’ works written related with genocide against the Azerbaijani people after gaining independence from the view point of source studying have been attracted to the circulation for the first time.

Chapter II titled as **“Genocides in Shemakha town in the documents of the Extraordinary Inquiry Commission”** also consist of two semi-chapters. In this Chapter the bloody events committed in Shemakha town and the damage to the people has been illuminated on the bases of documents of the Extraordinary Inquiry Commission.

Chapter III of the dissertation was titled as **“Genocides in Shemakha uyezdin in the documents of the Extraordinary Inquiry Commission”.** This chapter also covers two semi-chapters. In this Chapter on the bases of the documents of the Extraordinary Inquiry Commission the horrible slaughter committed in Shemakha uyezd and the damage to the people was investigated.

In the **“Conclusion”** of the dissertation the research was concluded, was maid summarization and analyzed the results of the investigation.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**МАМЕДЛИ САБИНА РАФИГ кызы**

# Документы Чрезвычайной Следственной Комиссии как источник для изучения геноцида совершенного в 1918 году Шамахинском уезде

**Специальность: 5509.01 – Историография, источниковедение и методы исторических исследований**

## АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2018**